(Əvvəli 4-cü səhifədə).

# 2013: Uğurlarımız, nailiyyətlərimiz, xoş gələcəyə doğru addımlar

Qəbələdə yeni yaradılan istehsal müəssisələri, aparılan tikinti-abadlıq işləri, istər müasir standartlara cavab verən magistral yollar. istər daxili yollar, salınan küçələr, iti sürətlə axan dağ çayları üzərində tikilən nəhəng körpülər, bütövlükdə istehsalın və sosial sahələrin sürətli inkişafı və tərəqqisi əhalinin həyat səviyyəsinin durmadan yaxşılaşdırılmasına yönəldilmişdir. Bu diqqəti həmişə ön planda saxlayan cənab Prezident İlham Əliyev regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı üzrə rayonun sosial-iqtisadi inkişafının daha du sürətləndirilməsinə dair əlavə tədbirlər barədə bu il iki dəfə sərəncam imzalamışdır. Bu sərəncamlarla rayonda görülən işlər üçün 7 milyon manata yaxın vəsait ayrılmışdır.

Doğma Qəbələmiz üçün 2013-cü ilin ən əlamətldar və yadda qalan tarixi hadisələrindən biri də budur ki, avqust ayının 16-da Qəbələnin yeni istifadəyə verilən Heydər Əliyev Konqres Mərkəzində Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III zirvə toplantısı çərçivəsində əvvəlcə həmin ölkələrin xarici işlər nazirlərinin görüşü olmuş və bu görüş zamanı əməkdaşlıq protokolu imzalanmışdır. Görüşdə Azərbaycan, Türkiyə, Qazaxıstan və Qırğızıstan respublikalarının xarici işlər nazirləri iştirak etmişlər. Müzakirələr zamanı həmin dövlətlər arasında əməkdaşlığın daha da genişləndirilməsi üçün təkliflər verilmiş, bu təkliflər müzakirə olunmuşdur. Bundan sonra elə həmin gün Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının III zirvə toplantısı keçirilmişdir. Toplantıda növbəti dəfə şuraya sədrlik etmək Azərbaycan Prezidenti İlham Əliyevin üzərinə keçmişdir. Tədbirdə iştirak edən dövlət başçılarının hər biri çıxış etmiş və Əməkdaşlıq Şurasının gələcək inkişaf yolları müəyyənləşdirilmişdir. Sonda Şuranın baş katibi Xəlil Akınçı tərəfindən jurnalistlər üçün mətbuat konfransı keçirilmişdir.

Qeyd edək ki, belə yüksək tədbirin Qəbələdə keçirilməsi bu şəhərin artıq hansı imkanlara, hansı nüfuza malik olmasını bir daha təsdiq edir.

Qeyd edilən əlamətdar hadisələrlə yanaşı Qəbələ bu il beynəlxalq musiqi festivalına, I Qəbələ mürəbbə festivalına, qəzetin məhdud imkanlarına görə adlarını ayrı-ayrılıqda sadalamaq iştəmədiyimiz konfranslara, beynəlxalq forumlara, mədəniyyət və incəsənət tədbirlərinə, müxtəlif xarici ölkələrin dövlət rəhbərlərinin, siyasi və ictimai xadimlərinin, iş adamlarının görüşlərinə, beynəlxalq və regional idman tədbirlərinə ev sahibliyi etmişdir. 10-15 il bundan əvvəl Azərbaycandan kənarda tanınmayan ucqar bir bölgə indi nəinki MDB məkanında, hətta bir çox xarici ölkələrdə belə tanınmaqdadır.

Xatırlatmaq yerinə düşər ki, Qəbələ çox-çox qədimlərdə də zəngin bir məkan olmuşdur. Eramızdan əvvəl V-I əsrlərdə, yeni eranın I-IV əsrlərində alimlərin tədqiqatına görə Qəbələ 900 il qədim Alban dövlətinin paytaxtı olmuş, qədim ipək yolu bu ərazidən keçmişdir. Ölkənin qədim Yunanıstan, Roma, Cin, hətta Hindistan kimi və bir sıra başqa nüfuzlu ölkələrlə ticarət əlaqəsi olmuşdur. İndi fərəhlə söyləmək olar ki, Qəbələ qədim şöhrətinin ilk cığırlarına qədəm qoymuşdur. Hazırda burada keçirilən beynəlxalq tədbirlər, biznes forumlar bizə bunları söyləməyə əsas verir. Qəbələdə istehsal olunan bir sıra məhsullar da dünyanın 30-dan artıq xarici ölkəsinə ixrac olunur.

Bütün bunlar göstərir ki, artıq 2013-cü il Qəbələnin tarixinə öz şərəfli möhürünü vurmuşdur. 2014-cü ildə daha yüksək qələbələr qazanmaq uğurlara nail olmaq, daha möhtəşəm tədbirlərə ev sahibliyi etmək üçün indi Qəbələdə kifayət qədər imkanlar yaranmış və geniş üfüqlər açılmışdır.

Yolumuz sürətli inkişafa, xoşbəxt gələcəyə doğrudur.

Uğurlar olsun!

**Nadir ATAKİŞİYEV.**

# Sığorta qarşılıqlı yardımlaşmadır

Sığorta sektoru dövlətin iqtisadi siyasətinin tərkib hissəsidir. Odur ki, ölkəmizdə sığorta siyasətinin inkişafına, onun hüquqi bazasının gücləndirilməsinə və insanlarımızın sığortaya maraq və inamının artırılmasına xüsusi önəm verilir. Bu məqsədlə son 10 ildə sığorta sektoruna aid çox mühüm qanun və qərarlar qəbul edilmiş və onların icra mexanizmi ardıcıl həyata keçirilir. Həmin qanunlardan biri olan "Sığorta haqqında" Qanun Azərbaycanda bu sənəddən sonra sığorta bazarının fəaliyyətini xeyli artırmış və insanlar tərəddüd etmədən malını, əmlakını, maşınını sığorta etdirirlər. Bu qanunun qəbulunda həm də məqsəd Azərbaycanda sığorta sisteminin hüquqi bazasının beynəlxalq prinsiplərə uyğunlaşdırmaqdan, iqtisadi münasibətlərdə sığorta xidmətinin rolunun və keyfiyyətinin artırılmasından, sığorta sektorunda dövlət nəzarətini gücləndirməkdən ibarətdir.

Təqdirəlayiq haldır ki, hazırda ölkəmizdə fəaliyyət göstərən sığorta şirkətləri və əyalətləri əhatə edən filiallar Avropa sığorta bazarının inkişaf modeli üzərində qurulub. Hazırda insanlar 30-a yaxın sığorta növündən yararlana bilirlər. Əlbəttə, qəbul edilmiş qanunlar da bu modelə əsaslanıb. Qeyd olunan qanunla sığorta sistemində bədbəxt hadisədən sığortalanma, sığortaçı, sığortalı, sığorta riski, sığorta hadisəsi, sığorta məbləği, sığorta ödənişi, sığorta haqqı, sığorta tarifi, sığorta müqaviləsi ümumi sığorta və digər sığorta qaydaları müəyyənləşdirilmişdir. Bədbəxt hadisədən sığortalanma-sığortalının ölümü, sağlamlığının, iş qabiliyyətinin qocalığa, yaxud əlilliyə görə tamamilə və ya qismən itirdiyi halları üçün aparılan sığorta növüdür. Sığorta riski-ehtimal olunan elə hadisədir ki, bədbəxt hadisəsinin baş verməsinə sığorta aparılır. Sığorta riski sayılan hadisənin təsadüf əlamətləri olmalıdır. Sığortanın qalan növləri qanunlar çərçivəsində tənzimlənir. Azərbaycan Respublikası Dövlət Sığorta Kommersiya Şirkətinin Qəbələ filialı da son vaxtlar öz peşəkarlığını sığorta sisteminin fəaliyyətini genişləndirməsi və yerlərdə əhali arasında sığorta maarifinin və vərdişinin yetərincə formalaşması istiqamətinə yönəltmişdir. Yerli icra nümayəndələri və bələdiyyə qurumları ilə birgə həyata keçirilən tədbirlər öz müsbət nəticəsini verir, vaxtı ilə sığorta sistemində buraxılan nöqsanlar aradan qaldırılır, insanlarda sığortalanmaya inam günbəgün artırır. 91 il çətin və sınaq yolunu keçən Qəbələ sığorta filialı bu gün öz fəaliyyət dairəsini xeyli genişləndirmiş, sığorta olunan vətəndaşların sayı artmış, sığorta haqqının toplanışında dönüş yaranmışdır. Bunu sığorta haqqının toplanışındakı fərqli rəqəmlər də təsdiqləyir. Sığorta haqqının məbləği keçən ilin 9 ayında 18000 manat olmuşdursa, bu ilin 9 ayında bu rəqəm 22000 manata çatdırılmışdır. Nəzərə çatdırmaq lazımdır ki, bu məbləğin əsas hissəsi avtonəqliyyat vasitələrinin və əmlak sığortası növlərinin payına düşür. Sığorta filialının direktoru Allahverdi Əfəndiyev sığorta sistemini gücləndirmək məqsədilə öz işini sığorta haqqındakı mövcud qanunlar çərçivəsində qurmuşdur. O, vaxtaşırı vətəndaşlarla sıx əlaqə saxlayır, insanların sığortalanmaya vərdiş və inamını formalaşdırır. Onun sözlərinə görə sığorta dara düşdüyü zaman insanın karına gəlmək, dəymiş maddi zərərin aradan qaldırılmasına kömək göstərmək mənasını ifadə edir. Müsahibim bildirir ki, hazırda filial əhaliyə məxsus olan avtomaşınların, evlərin, əhalinin qiymətli mebel və televizorlarının, kənd təsrrüfatı bitkilərinin və heyvanlarının sığortalanmasına xüsusi əhəmiyyət verir. O, həmçinin əlavə etdi ki, vətəndaşlar tərəddüd etmədən malını, əmlakını, maşınını sağlamlığını, hətta hazırlaşdığı səyahət səfərlərini də əvvəlcədən bizim filialda sığorta etdirə bilərlər. Eyni zamanda mahiyyət etibarı ilə sığorta qarşılıqlı yardımlaşma mənasını ifadə edir və bu əsasda fəaliyyətimizi həyata keçiririk.

Biz də öz növbəmizdə hər bir qəbələli vətəndaşına məsləhət görürük ki, həyatınızı, sağlamlığınızı xeyli məbləğdə pul və zəhmət bahasına tikilmiş, təmir olunmuş evlərinizi, yaşayış və təsərrüfat obyektlərinizi, nəqliyyat vasitələrinizi sığorta mühafizəsi ilə əhatə etdirin, sığorta şəhadətnaməsinə sahib olun.

**Aslan CƏLİLOV.**

## 2016-2019-cu illərdə xəbər agentliklərinin Dünya Konqresinə AzərTAc sədrlik edəcəkdir

2016—2019-cu illərdə xəbər agentliklərinin Dünya Konqresinə AzərTAc sədrlik edəcəkdir.

Bu barədə qərar noyabrın 20-də Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində dünyanın 70-dən çox mötəbər xəbər agentliyinin, OANA, EANA, FANA, İİNA xəbər alyanslarının, "Sky-Nyus Arabia", "Los-Anceles Tayms", "Guardian", BBC kimi aparıcı media qurumlarının və məşhur MSN, "Google", "Yahoo" internet korporasiyalarının rəhbərlərinin iştirak etdikləri xəbər agentliklərinin IV Konqresində qəbul olunmuşdur.

Xəbər agentliklərinin V Dünya Konqresinə 2016-cı ildə Azərbaycan ev sahibliyi edəcəkdir. Bu tədbirdə xəbər agentliklərinin Dünya Konqresinə 2016-2019-cu illərdə sədrlik AzərTAc-a keçəcəkdir.

Xəbər agentliklərinin birinci Dünya Konqresi 2004-cü ildə Rusiyanın Moskva, ikincisi 2007-ci ildə İspaniyanın Estepona, üçüncüsü Argentinanın Buenos-Ayres şəhərlərində keçirilmişdir.